# Güc mənbəyi

Bundan əvvəlki dərslərdə Məsihdə kimliyimiz barədə və sevən Səmavi Atamıza məqbul həyatla yaşamağı dayandıran zaman Allahın sevgisini və bağışlamasını necə hiss etməyi öyrəndik.

Məsihi Rəbbiniz və Xilaskarınız kimi qəbul edən andan həyatınızda qəribə kökündən dəyişmə başlayır. Siz məsihçi həyatı sürməyə başlayırsınız. Bu isə sadəcə müəyyən edilmiş norma yaxud əxlaq qaydalarına riayət etməyi saxlamağa çalışmaq deyil. Məsihçi həyat tərzi, sevən Allahla canlı şəxsi ünsiyyətdir.



> «Bayramın son, möhdtəşəm günündə İsa durub nida etdi: Kim susayıbsa, yanıma gəlib içsin. Müqəddəs Yazılarda deyildiyi kimi, Mənə iman edənin içindən sular axacaq. Bunu Ona imna edənlərin alacaqları Ruh haqqında söylədi» (Yəh. 7:37-39).

**Məsihçi həyat tərzini necə yaşamaq lazımdır?**

İsa deyirdi ki, Onunla sıx ünsiyyətin nəticəsi mükəmməl, dolğun həyatın mənasından ibarətdir. O deyirdi ki, belə həyatın mənbəyi Müqəddəs Ruhdur.



Tamamilə beləcə bizim Allahla qarşılıqlı münasibətlərimiz büsbütün Məsihin çarmıxdakı ölümündən asılıdır, həmçinin mükəmməl məsihçi həyatı üçün qüvvə yalnız Allahdan çıxır.

Bu kompüter özünün bütün funksiyalarını yerinə yetirmək **bacarığına** malikdir. Amma onda enerji (**güc**) mənbəyi yoxdur ki, özü-özündə işləmək bacarığında olsun.



Buna bənzər şəkildə Məsihdə yeni məxluq olaraq məsihçi həyatı yaşamaq **iqtidarında** olursunuz, amma sizə mütləq daim **güc mənbəyindən** qüvvət almaq lazımdır.





## Müqəddəs Ruh məsihçi həyatında güc mənbəyidir

☐ **Həv. 5:3-5-i oxuyun.**

*Peter Müqəddəs Ruhu Kim kimi hesab edirdi?*

*O yerə nə üçün enmişdir?*

Sizdə sakin olmaq üçün (Rom. 8:9).
İmansızlara xilasa möhtac olduqlarını göstərmək üçün (Yəh. 16:8).
Sizi həqiqətə gətirmək üçün (Yəh. 16:13).
Sizə Məsih haqqında xəbər vermək etmək üçün (Yəh. 16:14).

**Müqəddəs Ruh həyatınızda nə yaratmaq istəyir?**

**Rom. 8:16-ı oxuyun**

*Müqəddəs Ruh Allahla bizim qarşılıqlı münasibətlərimizə dair nəyi şəhadətçilik edir?*

**Qal. 5:22-23-ü oxuyun**

Bu nəcib keyfiyyətlərin sizdə təzahür etməsinin dərəcəsi həyatınızda Allaha nə qədər ümid bağlamanızdan, həmçinin də neçə müddət ərzində Rəbbin ardınca getmənizdən asılıdır. Əgər həyatınızda hələki Müqəddəs Ruhun bəhrələri yoxdursa və yalnız indi Müqəddəs Ruhun gücünü başa düşməyə başlayırsınızsa, təəssüflənməyin.

«Siz Məndə qalın və Mən sizdə. Budaq meynədə qalmasa, özlüyündə məhsul verə bilmədiyi kimi, siz də beləcə, Məndə qalmasanız, məhsul verə bilməzsiniz; Mən Meynəyəm, siz də budaqlarsınız; Məndə qalan və daxilində qaldığım kimsə çox məhsul verər; çünki Mənsiz heç bir şey edə bilməzsiniz» (Yəh. 15:4-5).

*İsanın sözlərinə görə nə etməliyik ki, O bizdə məhsullar görsün? Niyə?*

**Həv. 1:8-i oxuyun**

*Müqəddəs Ruh sizi nəyə hazırlamaq istəyir?*

*Sizcə, nə üçün Müqəddəs Ruh haqqında şəhadətlik etmək üçün Müqəddəs Ruhun gücünə ehtiyac duyuruq?*

## 2 Məsihçilərin çoxu Müqəddəs Ruhun gücünü hiss etmir

Siz Müqəddəs Ruhun apardığı işin nəticəsində imanlı oldunuz (Ef. 1:13). Həmin o andan etibarən Müqəddəs Ruh sizinlə bir yerdə olur (Rom. 8:11). Artıq görmüşük ki, O bizə mükəmməl məsihçi həyatı yaşamağa imkan verən güc mənbəyidir.

Müqəddəs Ruhdan qüvvət alaraq məsihçi həyatı yaşamaq o deməkdir ki, «Ruhla dolu olun» (bax, Ef. 5:18). Baxmayaraq ki, Müqəddəs Ruh hər bir məsihçidə **olur,** amma məsihçilərin hamısı Müqəddəs Ruhla idarə edilmir və Onun gücü ilə dolmurlar. Müqəddəs Kitabda deyilir ki, üç qrup insanlar var:

**Yenidən doğulmayanlar (1Kor. 2:14)**
Məsihi və onların günahlarına görə Onun çarmıxdakı ölümünü qəbul etməyən insanlar.
Müqəddəs Ruh onlarda olmur.




**Həyatını insan özü idarə edir**
Mən = həyatının taxtında şəxsi «Mən» (insan yalnız özünə güvənir)
✟ = Məsih imansızların padşahlığında
Щ = Taxт yaxud kiminsə həyatı-nın mərkəzində yaşamır.

**Ruhani insanlar (1Kor. 2:15)**
Məsihi özünün Xilaskarı kimi qəbul edən və özünün məsihçilik həyatında Müqəddəs Ruhun gücünə güvənən insanlar, Müqəddəs Ruhla dolmuşdular.




**Həyatını Məsih idarə edir**
✟ = Məsih həyatın mərkəzindədir
Mən **=** Yerimi Məsihə vermişəm

**Cismani insanlar (1Kor. 3:1, 2)**
Məsihə və insanların günahına görə Onun ölümünə iman edən, amma özünün şəxsi gücünə güvənərək məsihçi kimi yaşamağa çalışan insanlar.




**Həyatını insan özü idarə edir**
Mən = həyatının padşahlığında şəxsi «Mən» (insan yalnız özünə güvənir)
✟ = Məsih belə imanlıda yaşayır, amma o, həyatını idarə etmkdə

**HAKİM SUAL**

Bu sxemlərdən hansı sizin həyatınızı təmsil edir? Bəs siz hansı həyatı yaşamaq istəyərdiniz?

## 3 Müqəddəs Ruhun gücü ilə əhatə oluna bilərsinizmi

**Müqəddəs Ruhla dolmuş həyatla yaşamaq, sizdə və sizin vasitənizlə yaşayan Məsihin idarə etdiyi həyatla yaşamaq deməkdir. Yalnız imanınızla məhsullar əmələ gətirməyi vəd edən Allaha ümid bağlayaraq həyatınızı Müqəddəs Ruhla doldura (Müqəddəs Ruhla idarə edilə, Onun gücü ilə əhatə oluna) bilərsiniz.**

Müqəddəs Ruhla dola bilərsiniz, əgər:

**Etiraf etmə**

Sizə məlum olan bütün günahlarınızı **etiraf etsəniz** (Zəb. 66:18).
*Necə fikirləşirsiniz, Müqəddəs Ruhla dolmaqdan ötrü nə üçün bütün məlum günahları etiraf etmək lazımdır?*

**Tabe olma**

Həyatınızı **tamamilə** Məsihə **tabe edin** (Rom. 6:12, 13).
*Məsihə tamamilə tabe olmaqda sizə çətinlik törədən nədir?*
*Allahın bizim üçün etdiklərinə əsaslanaraq, həyatmızı tamamilə Ona etibar etməyə O nə üçün layiqdir?*

*Əgər günahlarınızı tövbə edib həyatınızı Məsihə tabe etmək* istəyirsinizsə*, onda növbəti addımlara keçə bilərsiniz.*

**Etibar**

Müqəddəs Ruha **etibar edin ki,** Allahın vəd etdiyi və buyurduğu kimi O sizi doldursun.

1. Allah sizə Müqəddəs Ruhla dolmağı **buyurdu**.
   «Və şərabla sərxoş olmayın, səfahətə səbəb odur; lakin Ruhla dolu olun» (Ef. 5:18).

2. Onun iradəsinə uyğun olan bütün istəklərinizə cavab verməyi Allah **vəd edir**.
   «Allahın qarşısında malik olduğumuz cəsarət isə bundan ibarətdir ki, əgər biz Onun iradəsinə uyğun şəkildə bir şey diləyiriksə, O bizi eşidir; və əgər biz biliriksə ki, O hər dilədiyimizi eşidir, biz Ondan diləmiş olduqlarımızı aldığımızı da bilirik» (1Yəh. 5:14-15).

Siz yalnız imanınıza görə Müqəddəs Ruhla dola bilərsiniz. İmanınız aşağıdakı duada öz ifadəsini tapa bilər:

«Əziz Rəbbim, öz həyatımı özüm idarə etməyə çalışdım və bilirəm ki, bununla Sənə qarşı günah işlətdim. Öz çarmıxdakı ölümünlə mənim günahlarımı bağışladığın üçün Sənə minnətdaram, İsa. İndi isə Səni həyatımın taxtını tutmağa dəvət etmək istəyirəm. Öz buyruğuna əsasən məni Müqəddəs Ruhunla doldur, çünki əgər imanla istəsəm, bunu etməyi Sən vəd etmişdin. Mən öz İmanımı Sənə minnətdarlıqla bildirmək istəyirəm, çünki Sən məni Müqəddəs Ruhunla doldurdun və Öz gücünlə əhatə etdin».

*Bu dua ürəyinizin istəyini ifadə edirmi?*

**HAKİM SUAL** Necə fikirləşirsiniz, elə indi bu dua ilə Allaha müraciət etsəniz, nə baş verər?

Əgər bu dua ürəyinizin diləyini ifadə edirsə, elə onunla da indi dua edə bilərsiniz və Müqəddəs Ruhla dolacaqsınız.

## 4 Siz daim Müqəddəs Ruhla dola bilərsiniz

Əgər bu həftə ərzində aşkar edirsinizsə ki, yenidən özünüz həyatınızı id edərək, hər hansı səpkidə itaətsizliklə günah edirsinizsə, onda nəfəsalma prinsiplərini (nəfəs vermə – günahların hamısı, nəfəs Müqəddəs Ruhla dolmaq) tətbiq edirsiniz.

Etiraf etmənin üç əsas hissəsini yadınıza salın:

**əfəs vermə**
Günahınızı tövbə edin (1Yəh. 1:9).

1. Allah qarşısında **etiraf edin ki,** günah etmisiniz.
2. Allaha **minnətdarlıq** edin ki, O artıq sizi bağışlayıb.
3. Günahdan **imtina edin** və sizin günaha münasibətinizi və əməllərinizi (tövbənizi) dəyişəcəyinə Allaha ümid bağlayın.

**Nəfəs alma**
İmanla Müqəddəs Ruhun gücünə bürünün və həyatınız üzərində rəhbərliyi Ona verin (Ef. 5:18).

1. Həyatınızı Məsihin rəhbərliyinə **tabe edin**.
2. Məsihə **etibar edin ki,** O sizi Öz gücüylə əhatə etsin və həyatınızı idarə etsin.

Bu ruhani tənəffüslərin adi prinsipləri bütün gün ərzində sizə Məsihlə idarə olunmağa və Ondan qüvvət almağa imkan verəcək.

Hər gün ən azı 15 dəqiqə olmaqla ruhani inkişafınızdan ötrü Müqəddəs Kitabı oxuyaraq dua etməklə Allahla ünsiyyətdə olmağa davam edin. Budur, bir neçə məsləhətlər verilir:

- **Ef. 3:14-21 və Kol. 3:12-17-i oxuyun.**
  Ruhani həyatla dolmaq barədə bu parçalarda nə deyildiyini müqayisə edin.

- **Ef. 3:14-21-i oxuyun.**
  Bu parçada Pavelin həm müasirlərinə, həm də bizə aid olan duaları verilir. Bu güc haradan əmələ gəlir? Bu güc həyatınızda nə əmələ gətirə bilər?

- **Mrk. 4:35-41.**
  Burada tufan vaxtı İsa və Onun şagirdlərinin üzləşdiyi hadisə barədə xəbər verilir. Nə üçün şagirdləri dəhşət götürmüşdü? İsanın xüsusunda onlar nədə şübhəli idilər?

## XÜLASƏ

**Müqəddəs Ruhun rəhbərliyi altında həyat öz ifadəsini təcrübədə tapır. Biz Məsihə ümid bağlayanda Müqəddəs Ruh bizdə Məsihin xasiyyətini formalaşdırır və bizə Onun şahidi olmaq qüvvəsini verir.**

Etibar xüsusi yaxınlığın əlaməti hesab edilir. Gələn dəfə biz Məsihi daha dərindən dərk edə bilməyimiz və ruhani inkişafımızdan ötrü Allahın hansı planı nəzərdə tutduğuna baxacağıq.